


Çinin ən zəngin adamı Vang Jianlin sərvətini miras qoymağa adam tapa bilmir. " Qafqazinfo " xarici mediaya istinadən xəbər verir ki, 62 yaşlı milyarder dünyanın ən varlı şəxslərinin siyahısında 18-ci yerdədir. Şirkətlərinin dəyəri 92 milyard, şəxsi sərvəti isə 32 milyard dollardır.

Ən pisi isə bu qədər sərvəti əmanət etməyə adam tapmır. Belə ki, 29 yaşlı oğlu Vang Sicong atasının mirasından imtina edib. O, atası kimi yaşamaq istəmədiyini bildirib.

Qeyd edək ki, 29 yaşlı oğulun gəlirləri də az deyil. 500 milyon dəyərində kompüter oyunları hazırlayan şirkəti var.